Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

**Layihənin istiqaməti: "İctimai və dövlət maraqları"**

# Rənglə yazılmış tarix

**Zaman-zaman insanları dünyanın neçə rəngdə olması məsələsi maraqlandırıb. Amma uzun əsrlər boyu insanlar bu suala cavab tapa bilməyiblər. Nəhayət yunan filosofu Aristotel milyon il bundan öncə özünün binar məntiqi ilə dünyanın yalnız iki - ağ və qara rəngdə olması qənaətinə gəlib. Bu məntiq əsrlər boyu işləyib və insan cəmiyyəti onun həqiqət olduğuna inanıblar.**

Lakin Aristoteldən çox-çox sonralar daha dəqiq desək, XX əsrin altmışıncı illərində Amerikada yaşayan soydaşımız professor Lütfi Zadə özünün qeyri -səlis məntiq nəzəriyyəsini kəşf edəndən sonra Aristotelin binar məntiqi öz dəyərini tamamilə itirib. Lütfi Zadə sübut edib ki, dünya yalnız iki rəngdən - ağ və qara rəngdən ibarət deyil. Qədim Şərq xalçalarında olduğu kimi, bu ağ və qara rənglər arasında da milyonlarla rəng çalarları vardır. Bir sözlə, ağ və qara rənglərin arası rəssamların rəng palitrası kimi rəngarəng və çoxçalarlıdır. Özü də zaman-zaman qüdrətli Şərq miniatür rəssamları Soltan Məhəmməd, Kəmaləddin Behzad, Ağamirək, eləcə də Avropa rəngkarları Rembrant, Şarden, Delakura, Matis bu rəng çalarlarından ustalıqla qaynaqlanıblar.

Xatırladaq ki, bu ənənə çağdaş əsrimizdə də rəssamlarımız tərəfindən uğurla davam etdirilir. Biz belə rəssamlardan biri, Mikayıl Abdullayev haqqında söhbət açmaq istəyirik.

* * *

Adını qızıl hərflərlə incəsənət tariximizin səhifələrinə yazmış keçmiş SSRI-nin və Azərbaycan Respublikasının xalq rəssamı, SSRI-nin və Azərbaycan Respublikasının Dövlət və Beynəlxalq Cəvahirləl Nehru mükafatları laureatı, keçmiş SSRI Rəssamlıq Akademiyasının akademiki Mikayıl Abdullayev çətin, amma şərəfli bir yaradıcılıq yolu keçmişdir. 1921-ci ildə Bakıda corabçı sahibkar ailəsində dünyaya göz açan Mikayıl Abdullayev hələ uşaq vaxtlarından incəsənətə meyilli olmuşdur. O, əvvəlcə aktyor olmaq həvəsinə düşmüş, sonra nədənsə incəsənətin təsviri sənət sahəsi onu özünə cəlb etmişdir. Amma görmə qabiliyyətini qəflətən itirən uşaq xeyli müddət bu sahəyə gələ bilməmişdir. Tədricən görmə qabiliyyəti bərpa olduqdan sonra o, öz istedadını büruzə verməyə başlamışdır. Evlərinin bayır divarlarında kömürlə, tabaşirlə müxtəlif ovqatlı şəkillər çəkib adamların diqqətini ora yönəltmişdir.

Sübuta ehtiyacı olmayan bir həqiqət var. İnsanın yetişib formalaşmasında, yaşadığı mühit və təhsil aldığı məktəb mühüm rol oynayır. Fikrimizcə, bu istedadlı uşağın bədii zövqünün formalaşmasında həm ailəsinin, həm də təhsil aldığı məktəbin xüsusi rolu olmuşdur. Sonralar - daha dəqiq desək, artıq o, tanınmış rəssam olanda nəql edib deyirdi ki, mənim ilk bədii təəssüratım Əzim Əzimzadənin böyük satirik şairimiz Mirzə Ələkbər Sabirin bütün ailələrdə stolüstü kitaba çevrilmiş "Hopopnamə"yə çəkdiyi illüstrasiyalardan başlayıb. Sonralar Abşeronun təzadlı təbiəti onun ilham mənbəyinə çevrilib. Yay aylarında Abşeron bağlarına istirahətə gedərkən, o, bu yerlərin zəngin təbiətini xüsusi bir maraqla müşahidə edər və günün müxtəlif çağlarını təsvir edən etüdlər çəkərdi. Heç şübhə yoxdur ki, təzadlı kölgələr yaradan cənub günəşinin nur saçdığı dar küçələr, qızıla çalan qumluğun və mavi səmanın fonunda nəzəri cəlb edən tünd yaşıl rəngli əncir ağacları, yastı damları olan sarımtıl-boz, bəzən də narıncı rəng çalan evlər, bazar günlərində dəstə-dəstə kənd küçələrinə çıxan yerli sakinlərin əlvan milli geyimi-uşaqlıq çağlarının bu rəngarəng təəssüratı Mikayılda rəssamlıq istedadının inkişafına öz təsirini göstərmişdir.

Mikayıl 1935-ci ildə 7-ci sinfi qurtarıb Azərbaycan Dövlət Rəssamlıq məktəbinə daxil olmuşdur. Həmin illər çox mürəkkəb və ziddiyyətli illər idi. Bu illərdə sənətdə formalizm ilə realist incəsənət arasında kəskin mübarizə gedirdi. Həm rəssamlıq məktəbinin müəllimləri, həm də tələbələri arasında elələri var idi ki, onlar incəsənətdə realist cərəyanı üstün tuturdular, bəziləri isə incəsənət üçün guya yeni bir şey yaratmağa çalışaraq forma dalınca qaçırdılar. Düzdür, mövcud mühit ondan da yan keçmirdi. Rembrantin, Kurbenin, Monenin yaradıcılığını ürəkdən sevdiyi üçün o da hərdənbir onların təsiri altına düşür, impersionistlərin yolu ilə gedib eksperimentlər və araşdırmalar aparırdı.

Bəli, Mikayıl Abdullayev belə bir şəraitdə təhsil alırdı. Amma nədənsə o, həmişə klassiklərə və realistlərə rəğbət göstərirdi. Gənc rəssam oxuduğu illərdə yəqin etdi ki, incəsənətdə uğur yalnız gündəlik gərgin işləmək sayəsində qazanıla bilər. Elə buna görə də o, bu sözləri əbədi olaraq özünün həyat və yaradıcılıq amalına, devizinə çevirdi.

Həmin illərdə gənc Mikayıl Abdullayev çox maraqlı etüdlər, mənzərələr çəkib Rəssamlar İttifaqının təşkil etdiyi sərgilərdə iştirak etməyə başladı. Sənətşünaslar və rəsm həvəskarları həmin sərgilərdə onun çəkdiyi etüdlərdə Korovinin, Sorınanın ruhunu, manerasını hiss etdilər. Öz yaradıcılığına məsuliyyətlə yanaşan Mikayıl Abdullayev bunu başa düşüb tədricən mürəkkəb kompozisiyalı tematik mövzulara müraciət etməyə başladı. Nəticədə 1939-cu ildə tələbə yoldaşları ilə birgə işlədikləri "Opera teatrında antrakt", "Kolxozçunun ailəsi" əsərləri meydana gəldi. Bu əsərlərdən bir daha aydın oldu ki, gənc tələbə rəssamın mürəkkəb kompozisiyalarının həllində ciddi professional hazırlığı və yaradıcılıq təcrübəsi çatışmır. Bunları aradan qaldırmaq üçün ali rəssamlıq təhsili almaq lazımdır.



Ona görə o, günlərin bir günü tələbəlik illərində çəkdiyi ən yaxşı işlərini Surikov adına Moskva Rəssamlıq İnstitutunun ünvanına göndərib cavab gözlədi. Çox keçmədi ki, institutun direktoru, akademik İqor Qrabardan müsbət cavab məktubu gəldi. Mikayıl Abdullayev 1939-cu ildə Moskvaya təhsil almağa getdi. O, uğurla imtahan verib təsviri sənət fakültəsinə daxil oldu. Sanki onun bəxti gətirdi. O, ali rəssamlıq məktəbinə daxil olan vaxtları məşhur rus rəssamlarından Sergey Gerasimov, Qriqori Şeqal, Aleksandr Osmyorkin, Pyotr Pokorjevski və başqaları burada dərs deyirdilər. Gənc Mikayıl Abdullayev əsasən xalq rəssamı Sergey Gerasimovun emalatxanasında məşğul olurdu. Bu emalatxanada çalışmaq onun həyatında və yaradıcılığında böyük dəyişikliklər yaratdı. O, öz müəllimindən rəngkarlıq sənətinin sirlərini öyrəndi, dünya rəssamlığının keçmiş və müasir nailiyyətləri ilə yaxından tanış oldu.

Öncə qeyd etdiyimiz kimi, həmin dövrlərdə rəssamlıq məktəblərində, akademiya və institutlarında realizm və formalizm cərəyanının çox gərgin mübarizəsi gedirdi. Bu proses Mikayıl Abdullayevin qəbul olunduğu Surikov adına Dövlət Rəssamlıq İnstitutunda da öz axarı ilə davam edirdi. Hələ Bakı Rəssamlıq Məktəbində oxuduğu dövrlərdə "impressionizm" cərəyanına, onun mənəvi rəhbərlərindən biri olan Eduard Monenin yaradıcılığına xüsusi rəğbət bəsləyən, onun təsiri altında əsərlər yaradan Mikayıl Abdullayev müəllimi Sergey Gerasimovla ilk görüşlərindən sonra hiss etdi ki, onun tutduğu yol müəlliminin xoşuna gəlmir. Bununla əlaqədar Mikayıl Abdullayevin hələ sağlığında danışdığı bir xatirə xüsusi maraq doğurur: "Etiraf etməliyəm ki, həm rəssamlıq məktəbində, həm də institutunda oxuyarkən bu rəssamın yaradıcılığının təsiri altında işləmişəm. Hətta həddən artıq onu sevdiyim üçün haqqında rus dilində bir əsr ərzində nə çap olunubsa, demək olar ki, hamısını əzbər bilirdim. Xarici dillərdə onun yaradıcılığına həsr edilmiş bütün albomlarla tanış idim. Bu təsir mənim bəzi həmkarlarıma da sirayət etmişdi. İnstitutda məndən bir kurs aşağı oxuyan bizim Əbdülxalıq da Moneni çox sevirdi. İmtahan vaxtı Əddülxalığın müəllimi onu komissiyaya belə təqdim etmişdi:"Tələbə Əbdülxalıq". Sergey Vasilyeviç özünəxas hazırcavablıqla demişdi: "Başa düşdük, Əbdül, yanında da Mone". Xeyli vaxt Əbdülxalığa öz aramızda zarafatyana "Əbdülmone" deyərdik...

Sergey Gerasimov mənə də Əbdülxalığa baxdığı prizmadan baxırdı. Bir dəfə tələbə komitəsinin sədri mənə dedi ki, "Mone məsələsi", böyük bir cəncələ səbəb olubdur. Komissiyanın üzvləri rəngkarlıq fənlərindən sənə "5" qiymət vermək istəyirdilər, amma Sergey Vasilyeviç heç cür bununla razılaşmaq istəmirdi. Deyirdi ki, həmin əl işləri vaxtından qabaq böyük rəssam iddiasında olan istedadlı tələbə işləridir. Axırda o fikrini yekunlaşdıraraq deyir: "Yaxşı, rəngkarlıqdan qoy "5" olsun, ancaq unutmayın ki, bu Mone pisindəndir".

Bu əhvalatdan sonra "Papağımı qabağıma qoyub" əməlli fikirləşdikdən sonra belə bir qənaətə gəldim ki, Sergey Vasilyeviç məni və Əbdülxalığı haqlı olaraq tənqid etmişdir. O, bizim simamızda müasir Azərbaycan rəssamı görmək istəyirdi. Eduard Moneni təqlid etmək yanlış yol idi".

Lakin bütün bu paradokslara, tənqidlərə baxmayaraq, iki yol ayrıcında qalan, amma Eduard Mone yaradıcılığının təsirindən hələ də çıxa bilməyən Mikayıl Abdullayev impessionizm cərəyanı üslubunda həm gizli, həm də aşkar xeyli rəngkarlıq nümunələri yaratmışdır.

Amma iş elə gətirdi ki, 1941-ci ildə qəflətən Böyük Vətən Müharibəsi başladı və bunun nəticəsində onun təhsili yarımçıq qaldı. O, Bakıya qayıtdı, amma əlini-əlinin üstünə qoyub boş dayanmadı. Başqa rəssamlarla birlikdə SITA-nın təbliğat plakatlarının yaradılmasında fəal iştirak etdi, qəhrəman döyüşçülərin bir çox gözəl portretlərini yaratdı.

Xalq həyatını vəsf etmək, mənsub olduğu xalqın həyat və məişətini öz tablolarında canlandırmaq sənətə gələn bütün yaradıcıların ən önəmli arzularından biridir. Xatırladaq ki, Mikayıl Abdullayev də öz əvvəlki həmkarları kimi sənətə gəldiyi ilk günlərdən xalq həyatına böyük maraq göstərmişdir. Bu da istedadlı sənətkarın realist yaradıcılıq yoluna inamla qədəm qoymasına səbəb olmuşdur. Onun həyat həqiqətini böyük səylə və hərtərəfli göstərməyə çalışması 1947-ci ildə Moskvada Ümumittifaq rəssamlıq sərgisində nümayiş etdirilən "Axşam" tablosunda çox qabarıq və aydın görünür.

Rəssamın gənclik illərinin məhsulu olan "Axşam" tablosunda verilən şairanə Qarabağ qızlarının hissləri, qəlb çırpıntıları olduqca səmimi və nikbindir. Gənclik eşqi və təravəti ilə yaradılmış bu tablo kompozisiya, bədii sənətkarlıq, boyaların uyarlığı, tarazlığı baxımından Azərbaycan rəngkarlığının ən kamil nümunələrindəndir. Onun "Sevinc" tablosu da həmin qəbildən olan rəngkarlıq əsərlərindəndir. Elə bu səbəbdəndir ki, vaxtilə akademik İqor Qrabar rəssamın bu əsərini çox yüksək qiymətləndirmişdir:"Lövhə rənglərlə və işıqla hədsiz dərəcədə dolğundur... Burada həyat eşqi tükənməz xoşbəxtlik naminə həqiqətən ilhamlı bir himn bəstələnmişdir". Müəllimi Sergey Gerasimov da onun "Sevinc" tablosuna yüksək qiymət vermişdir. Bu əsər böyük əks-səda doğurub sənətşünasların, sənətsevərlərin diqqətini çəkdiyi üçün 1957-ci ildə keçmiş SSRI Rəssamlıq Akademiyasının gümüş medalı və diplomuna layiq görülmüşdür.

Böyük Vətən Müharibəsi başlayanda Surikov adına Rəssamlıq İnstitutunda təhsilini yarımçıq qoyub Bakıya dönən Mikayıl Abdullayev bir də müharibə qurtarandan sonra ora qayıtmışdır. O, burada təhsil ala-ala görkəmli Azərbaycan ədəbiyyatı və incəsənəti xadimlərinin silsilə portretlər qalereyasını yaratmışdır. Bu portretlər qalereyasına daxil olan bəstəkar Üzeyir Hacıbəylinin, şair Səməd Vurğunun, yazıçı Mirzə İbrahimovun, aktrisa Mərziyə Davudovanın, müğənni Şövkət Məmmədovanın incə rəngkarlıq manerası ilə çəkilmiş portretləri xüsusilə diqqətəlayiqdir. Naturadan çəkilmiş bu portretlərdə müxtəlif cizgilərlə onların zahiri və daxili psixoloji dünyaları ustalıqla aşkarlanmışdır.

Bu məqamda bir faktı xatırlamaq yerinə düşərdi. Müharibədən sonra ölkədə böyük quruculuq və bərpa işləri başlanmışdı. Azərbaycan da bu hərəkata qoşulmuşdu.

Mingəçevirdə böyük su elektrik stansiyası tikilirdi. O vaxtlar Surikov adına Rəssamlıq İnstitutunun son kurslarında oxuyan Mikayıl Abdullayevi bu nəhəng su elektrik stansiyasının inşası çox maraqlandırırdı. Qışda və yayda tətilə gələn gənc rəssam Bakıda bənd almayıb tez-tez Mingəçevirə gedərdi. Bu heç də səbəbsiz deyildi. O, burada müşahidələr aparıb müxtəlif ovqatlı etüdlər və eskizlər çəkirdi. Bir müddətdən sonra bu etüd və eskizlər "Mingəçevir silsiləsi" rəngkarlıq nümunələrinə çevrildilər. Bu silsilə "Mingəçevir işıqları", "Beşilliyin yolları ilə", "Səadət quranlar", "Rəfiqələr", "Kürün sahillərində" tablolarından ibarət idi. Həmin rəngkarlıq nümunələrinin hamısı, amma onlardan xüsusilə biri - "Mingəçevir işıqları" adlı sənaye mənzərə əsəri olduqca diqqətəlayiqdir. Bu əsərdə insan gücünə inam, qurub yaratmağın poeziyası rənglər vasitəsilə çox inandırıcı verilmişdir. Elə bunun nəticəsidir ki, həmin əsər əvvəlcə Moskvada təşkil edilmiş Ümumittifaq rəssamlıq sərgisində, sonra isə Budapeştdə keçirilən II Beynəlxalq gənclər festivalının rəssamlıq sərgisində böyük uğurla nümayiş etdirilmişdir.

**Möhbəddin Səməd**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***